C.F.TAĞI-ZADƏ
baş müəllim
e-mail: tagizadcmal@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:10.62021/0026-0028.2024.2.270

FRANSIZ DİLİNİN TƏDRİSİNDƏ TƏLƏBƏLƏRDƏ CÜMLƏQURMA VƏRDİŞİNİN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

Xülasə. *Müasir dövrdə xarici dillərin öyrənilməsinə olan maraq, hər hansı bir xarici dildə sərbəst ünsiyyət qurmaq məsələsi tədrisin aktual problemlərindən birinə çevrilmişdir. Dilin öyrənilməsində əsas məsələlərdən biri lüğət ehtiyatının zənginləşdirilməsidir. Belə ki, fransız dilinin tədrisində leksik çalışmalar dilin leksik aspektinin inkişafına xidmət edir, bura sinonim və antonimin tapılması, mənasına görə sözlərin qruplaşdırılması, eyni qrupa daxil olmayan sözün seçilməsi, tapmaca vasitəsilə sözün tapılması və s. aid edilə bilər.*
Məqalədə dərs prosesində yeni sözlərin izahı, lüğət ehtiyatının zənginləşdirilməsi, tələbələrdə cümləqurma vərdişinin inkişaf etdirilməsi yolları təhlil edilir. Dili daha yaxşı mənimsəmək məqsədilə müstəqil işlərdən geniş istifadə edilməsi, dərsin hər mərhələsinin öyrədici xarakter daşıması, müstəqil işləmək bacarığının yaradılması məsələlərinə toxunulur.

Açar sözlər: *fəal təlim, kontekst, lüğət ehtiyatı, oxunun təşkili, yazı bacarıqları, nitq bacarıqları*

Respublikamız öz müstəqilliyini əldə etdikdən sonra aparılan uğurlu dövlət quruculuğu prosesi digər sahələrdə olduğu kimi təhsildə də əsaslı şəkildə yenilənməni zəruri etmişdir. Təhsil islahatı üzrə dövlət proqramı dünyadakı qabaqcıl təcrübənin ölkəmizdə tətbiqi istiqamətində mühüm addımlar atılıb və atılmaqdadır. Ali təhsil müəssisəsinə qəbul olmuş tələbə istənilən xarici dil dərslərində kommunikativ nitq bacarıqlarının inkişafı onların ünsiyyət bacarıqlarının formalaşmasına, lüğət ehtiyatının zənginləşməsinə, qrammatik anlayışların və dil konstruksiyalarının mənimsənilməsinə, oxu, yazı texnikası və dinləyib-anlama vərdişlərinin inkişaf etdirilməsinə fəal təlimlərlə zəmin yaradır. Yeni təlim metodları dərs prosesində dilin minimal lüğət ehtiyatını zənginləşdirməyə kömək etməklə yanaşı, həm də çox vacib olan tələbələrin şifahi nitqini, onların danışıq bacarığını sürətləndirir, eşidib-anlama, oxuyub-anlama və yazı bacarıqları kimi bir sıra vərdişləri formalaşdırır və təkmilləşdirir.

Tələbələr xarici dili öyrənən zaman qarşılaşdığı ən böyük çətinliklər danışma zamanı baş verir. Bu zaman yeni bir xarici dili öyrənən tələbə yaranmış situasiyaya məxsus bir söz demək üçün daha çox təcrübəyə ehtiyac duyur [1, s.31]. Bunun üçün çox zaman tələb olunur və onlar bunun əhəmiyyətini başa düşməyərək müəllim tərəfindən deyilmiş fikirləri təkrarlamaqla dil öyrənməyə çalışır və ona görə də müəllimin yaratmağa çalışdığı stimul isə süni görünməyə başlayır. Tələbələr dərs materialında verilmiş cümlələri təkrarlayır, çalışmaya verilən cümlələri tamamlayır və heç bir real dildən istifadə etmədiyinə görə dərsdən kənar kontekstdə fikir mübadiləsinə girə bilmir. Təbii ki, danışığa yiyələnmə tələbələrdə fransız dilində lüğət ehtiyatının zəngin olmasından az asılı deyil. Yeni xarici dil öyrənmənin ilkin mərhələsində lüğət ehtiyatı nə qədər çox zənginləşərsə bir o qədər öyrənən danışıqda sərbəst olar və özlərini daha aydın şəkildə ifadə edə bilər.

Xarici dildə ünsiyyətin öyrədilməsində lüğət ehtiyatının genişləndirilməsi faktorunu unutmamalıyıq. Ünsiyyət üçün vacib olan söz, cümlə, qrammatik struktur və bunların yaddaşda möhkəmlənməsi təbii ki, bu faktordan aslıdır. Müəllim danışığın tədrisində yeni bir xarici dil öyrənən tələbələrə stimul kimi elə söz və qrammatik strukturdan istifadə etməlidir ki,

onlar danışıq zamanı hər hansı bir situasiyada və ya mövzuda özünü doğrulda bilsin. Onlar tələbələri hazırlıqlı nitqdən hazırlıqsız nitqə öyrətməlidir [3, s. 37-49]. Tələbələrin tədris prosesində xarici dil dərslərinə yalnız tədris proqramına salınmış bir fənn kimi yox, həm də asudə vaxtın dəyərləndirilməsinin bir üsulu kimi baxması zəruridir. Xarici dillərin öyrənilməsinə həvəs və motivasiyanın yaradılması xarici dilin tədris olunduğu ilk gündən edilməsi zəruridir. Bu dövrdə qrammatikanın və söz ehtiyatının dili öyrənənlərin beyninə həkk edilməsi və bundan əlavə onlarda dilə qarşı sevginin yaradılması onların və cəmiyyətimizin həyatına müsbət keyfiyyətlər qazandıracaq amillərdəndir.

Göstərilən məqsədə nail olmaq üçün xarici dilin fəal metodlarla öyrənilməsində təlimdə fəaliyyət növləri göstərilən şəkildə müəyyənləşdirilir və reallaşdırılır: a) dinləyib-anlama; b) danışma; c) oxu; ç) yazı.

Fəal təlimlə dinləyib-anlama fəaliyyətinin təşkili nitq fəaliyyətinin digər növləri ilə sıx bağlı olub, danışma üçün zəmin yaradır və xarici dilin öyrənilməsində mühüm yer tutur. Nitqin formalaşmasında əsas rol oynayan dinləyib-anlama tələbələrdə eşitdiyi nitqi diqqətlə dinləmək, məzmununu müəyyənləşdirmək və əldə etdiyi yeni informasiyanı yadda saxlamaq bacarıqlarının formalaşdırılmasını təmin edir. Tələbə dinlədiyi mətndə əsas fikri müəyyən edir, dinlədiyi mətndə yeni informasiyanı seçir, dinlədiyi nitqdə danışıq dili ilə ədəbi dili fərqləndirir.

Fəal təlimlə danışma fəaliyyətinin təşkili həm monoloji, həm də dialoji formada təzahür edərək yaddaşda qalan sözlərin seçilməsi və onların nitq prosesinə daxil edilməsi, fikrin şifahi ifadəsidir. O, tələbələrdə ünsiyyətə girmək, öz fikirlərini ifadə etmək, gördükləri və eşitdikləri haqqında məlumat verə bilmək, danışanın fikrinə münasibət bildirmək bacarıqlarının formalaşdırılmasını təmin edir. Onlar nitqlərində sadə və mürəkkəb konstruksiyalardan istifadə edir, oxuduğu və ya dinlədiyi mətnin məzmununu izah edir, eyni fikri müxtəlif formalarda ifadə edir, əşya və hadisələrə, gördüyünə və eşitdiyinə, müzakirə olunan məsələlərə münasibət bildirir, şəraitə uyğun olaraq ünsiyyət qura bildiyini nümayiş etdirir, müxtəlif mənbələrdən topladığı informasiyalar əsasında təqdimat edə bilirlər.

Oxunun təşkili tələbələrdə oxu texnikasına (sürətli, düzgün, şüurlu, ifadəli) yiyələnmək, oxu vərdişlərini inkişaf etdirmək, yeni bilik və məlumatlar qazanmaq, ətraf aləmi dərindən dərk etmək imkanlarının yaranmasını təmin edir. Nəticədə, tələbə oxu prosesində tələffüz qaydalarını mənimsədiyini nümayiş etdirir, oxuduğu mətnlərdə əsas məzmunu müəyyən edir, oxuduğu mətnlərin məzmununu şərh və izah edir, oxuduğu mətndə əsas fikri müəyyən edir, yeni informasiyanı seçə bilir.

Fəal təlimlə yazının təşkili cəmiyyətin hazırkı inkişaf səviyyəsində insanların iqtisadiyyat, təhsil, biznes, mədəniyyət və incəsənət sahələri üzrə ünsiyyət yaratmaq tələbatlarını xeyli təmin edir. Belə bir vəziyyətdə bu və ya digər xarici dildə yazı bacaraqlarına yiyələnmədən keçmək mümkün deyildir. Bu mənada ali təhsil müəssisələrində xarici dil təliminin mühüm bir istiqamətini yazı vərdişlərinin formalaşdırılması təşkil edir. Buna görə də tələbələrdə müasir informasiya və kommunikasiya texnologiyaları vasitəsi ilə ünsiyyət qurmaq, həyati tələbatlarla bağlı yazı bacarıqlarını mənimsətmək zəruri hesab olunur. Tələbə əməli yazı bacarıqlarını nümayiş etdirir, müasir informasiya və kommunikasiya texnologiyaları vasitəsilə ünsiyyət qurur, həyati tələbatlarla bağlı yazı bacarıqlarını nümayiş etdirir.

Xarici dil sosial-mədəni biliklər əsasında kommunikativ nitq bacarıqlarının formalaşdırılmasını əhatə etməklə nəticəyönümlü məzmun standartlarına uyğun olaraq sadədən mürəkkəbə, asandan çətinə prinsipləri əsasında qurulur, tələbə nailiyyətlərini izləməyə və qiymətləndirməyə imkan yaradır. Belə hesab etmək olar ki, ənənəvi təlimin nəticələri tələbənin həyata olan tələbatını, marağını nəzərə almır, o lazım olan biliklərin əldə edilməsinə nail ola bilmir. Deməli, ənənəvi təlim dərs prosesində öz yerini daha mükəmməl, daha təşəbbüskar, daha səmərəli keyfiyyətləri olan fəal təlimə verməlidir və artıq tədris prosesində interaktivlik daha öndədir. Beləki, xarici dillərin mənimsənilməsində tədris materiallarının, texniki avadanlıqların köməyi ilə tələbələrdə anlama, dərk etmə, mühakimə, yaddaqalma, çevik nəticə çıxarma

kimi keyfiyyətlər yaranır. İnsanın həyat fəaliyyəti zamanı dinləmə, danışma, oxu və yazı bacarıqlarının özünəməxsus yerləri var. Nitq fəaliyyətinin reseptiv növləri qaydaya uyğun olaraq produktivlərdən daha üstün yeri tutur. İnsan dinləmə zamanı danışmadan daha çox məlumat əldə edir. İnsan dinləmə zamanı danışa bildiyi hər şeyi qəbul edir, lakin danışıq zamanı eşitdiyi hər şeyi deyə bilmir, eləcə də yazdığını oxuduğu zaman hər şeyi anladığı kimi, oxuduğu zaman anladığının yalnız cüzi bir hissəsini yazır. Ünsiyyət məqsədi ilə dilə yiyələnmə hər kəsdə fərqlidir. Nitq fəaliyyətinin bu və ya digər aspektinə yiyələnmənin səviyyəsi fərdi olaraq insanın sosial və professional dünyagörüşü və mədəni səviyyəsindən asılıdır [2, s. 133].

Dilə yiyələnmə prosesində tələbələrdə ünsiyyət bacarığı, dialoqa girmək, beynəlxalq əməkdaşlıqda fəal iştirak, qlobal problemlərin həlli yollarını asanlıqla tapmaq fəal təlimin mühüm xüsusiyyətlərindən biridir. Bu yeni texnologiyalar məntiqə əsaslanan, praktiki bacarıq və idraki fəaliyyəti gücləndirən, sərbəst düşüncə ilə mühakimə yürütmək, müşahidə aparmaqla başqalarının fikrinə qarşı öz rəyini bildirmək və nəhayət qərar qəbul etməklə tətbiq edilir. Nitq fəaliyyətinin bütün növləri nitqin formalaşmasına xidmət edir. Danışıq bacarığını formalaşdıra biləcək fəaliyyət növləri tədrisin hər mərhələsində xarici dildə danışma bacarığına verilən tələblər nitqin dil normaları baxımından düzgün qurulmasını, məqsədə uyğunluğunu, situasiyaya müvafiqliyi, istifadə olunan strukturların müxtəlifliyi nəzərə alınmalıdır. Sözlərin izahının verilməsində, qrammatik materialın mənimsədilməsində, çalışmaların və nümunələrin təqdim edilməsində reproduktiv danışıq vasitə rolunu oynayır. Şifahi nitq (danışma və eşidib-anlama) tələbələrin bilik, bacarıq və vərdişlərini müasir təlim metodları ilə yoxlanılmasında bir vasitə kimi çıxış edir. İlk dövrdə müəllim tələbəyə ünsiyyət prosesi yaratmaq üçün şifahi və yazılı dil çalışmaları (fonetik, leksik, qrammatik) tətbiq edir. Xarici dildə ünsiyyətin tədrisi zamanı tələbələrdə nitq bacarığının formalaşması üçün ən vacib şərtlərdən biri söz bazasının zənginləşdirilməsidir. Burada əsas məqsədlərdən biri və ən başlıcası tələbənin xarici dildə, istənilən mövzuda sərbəst fikir mübadiləsi edə bilməsidir. Fransız dilinin öyrədilməsində aktiv təlim metodları kommunikativ vərdişlərin inkişaf prosesini sürətləndirir. Şifahi nitqin tədrisini fəaliyyət növləri ilə inkişaf etdirməklə dilin lüğət bazasını genişləndirmiş oluruq. Bura *rollar* (turizmdə, məlumat bürosunda, ticarət, sənaye, mədəniyyət işlərində, dil dərslərində); *situasiyalar* (turizmdə, peşə ilə bağlı sahələrdə); *mətn növləri* (şəxsi və işgüzar məktublar, jurnal və qəzetlər, ədəbi mətnlər və s.) daxil edilə bilər [4, s. 94-97].

Xarici dillərin mənimsənilməsində əməli məqsəd kimi danışığın belə didaktik metodlarla öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Bununla yanaşı aktiv nitq üçün müxtəlif tapşırıq növlərinin dərs prosesində tətbiqi zəruri hesab edilir. Tədris zamanı nəzərə almaq lazımdır ki, situasiyalar vasitəsilə kommunikasiya qruplarla kontekst daxilində baş tutur və bununla yeni sözlərin izahı və öyrəncilərdə cümlə qurmaq vərdişlərinin inkişaf etdirilməsi yolları formalaşır:

Linqvistik kontekst: söyləm daxilində söz və söz birləşmələrinin mənasını təyin edərkən kontekstin rolu. Məsələn, *C'est Yvone Portal. Il est bibliothécaire. Je suis son frère. Bu Ivon Portaldır. O kitabxanaçıdır. Mən onun qardaşıyam.*

Sosial (ictimai-mədəni) kontekst: danışanla dinləyici arasında ictimai əlaqələrin əks olunduğu kontekst (ictimai yerdə, yemək zamanı, böyüklərlə davranış zamanı müraciət formaları). Bəzən bu, situativ kontekst də adlanır. Məsələn, kitabxanada *"Parlez doucement, s'il vous plaît!" (Zəhmət olmasa, sakit danışın!)*

Yuxarıdakı misallardan görünür ki, dilin istifadəsi zamanı müxtəlif növ kontekstə rast gəlmək olur. Dərs prosesində yazı vərdişinin inkişafına yönələn tapşırıqlar isə fransız dilinin mənimsənilməsində xüsusi yer tutur. Məsələn: – *Hər hansı bir tədbir üçün dəvətnamə hazırlayın. – İnsanları nəzakətli dəvət edin və onları məlumatlandırın. – Hansı situasiyalarda, necə musiqi dinləməyi sevdiyinizi yazın. – Fikirlərinizi ətrafdakılarla paylaşın onların da fikirlərini ifadə etmələrini təmin edin. – Müasir dövrdə insanlar əsəbi olduqlarından şikayətlənirlər. Sizi əsəbləşdirən sosial səbəblərin siyahısını yazıb onları qrupda müzakirə edin. – Adları verilən adamlardan birini seçib düzgün yazının dörd mərhələsinə əməl edərək tərcümeyi-hal yazın. –*

Mənim ən yaxın dostum. – Mənim valideynlərim / babam/nənəm. – Mənim sevimli film qəhrəmanım. – Mənim idman ulduzum. – Mənim sevimli musiqiçim.

Beləliklə, məntiqlə ifadə olunan fikirlər nəticəsində tez və maraqlı situasiyalar yaranır. Fənni tələbələrə daha yaxşı mənimsətmək məqsədilə müstəqil işlərdən geniş istifadə edilməlidir. Tələbələrin fəallığı şəraitində aparılan dərsin hər mərhələsi öyrədici xaraker daşımalı, vaxtın hər dəqiqəsi müstəqil işi yerinə yetirmək bacarığının inkişaf etdirilməsinə sərf olunmalıdır. Dilə praktik nail olmaq üçün öyrəncilərə nitq nümunələrini dərindən mənimsəmək, öz bilik və bacarıqlarını maraqlarına uyğun nümayiş etdirmək vacibdir. Bu baxımdan xarici dillərin (fransız dilinin) öyrənilməsi tələbələrin qarşısında ciddi tələblər qoyur. Bu tələblər: zəngin söz ehtiyatına, qrammatik qaydalara, düzgün oxu və dil qavrama bacarıqlarına sahib olmaqdır.

Qeyd etmək lazımdır ki, hər hansı bir dili öyrənərkən qarşıya qoyulan məqsəd müəyyən bilik və bacarıqların əldə olunmasıdır. İstifadə etdiyimiz çalışmalar da məhz həmin məqsədə daha yaxşı və tez çatmağımıza xidmət etməlidir. Fəaliyyət növlərindən istifadə etməklə yerinə yetirilən çalışmanın əsas məqsədi öyrənənin hər hansı bir yeni keçilən söz və ifadələri, öyrədilən biliyi necə mənimsədiyini yoxlamaqdır. Bu baxımdan təlimdə təcrübə anlayışı, çalışma anlayışından daha genişdir. Belə ki, təcrübənin məqsədi mükəmməl öyrənmədir [4, s. 66-82] və dilin mənimsənilməsində dil vahidləri əsas hesab edilir. Çünki bura müxtəlif sözlər, söz qrupları, söz birləşmələri daxildir. Bunlar yalnız müxtəlif mənalı yox, həmçinin söz vahidləri kimi hesab edilir. Leksik materialın əldə edilməsində müxtəlif mətn növlərinin probelmlərinə də rast gəlirik ki, bu da yazılı mətndə tez-tez qarşılaşdığımız sözlər çox vaxt şifahi nitq üçün lazım olmur. Belə ki, müəyyən situasiyalarda bir qədər tez-tez işlənən, deyilən sözün daha çox faydası olur. Əgər reseptiv məqsədlər üçün bir əşyanın təsvirinə bir çox sözün işlənməsi ehtiyacı olursa, produktiv məqsədlər üçün yalnız bir söz bəs edir. Demək olar ki, dilin mənimsənilməsində didaktik məqsədlərə çatmaq üçün bir çox çətinliklər və problemlərlə rastlaşırıq. Xarici dillərin tədrisində dərsin planı məqsədli olaraq öyrəncilər üçün mövzular, situasiyalar, kommunikativ məqsədli çalışmaları seçir və lüğət fondunu təşkil edir.

İşin elmi nəticəsi: Ali təhsil müəssisələrində yeni bir xarici dilin (fransız dilinin) tədrisi mərhələsində tələbələr müxtəlif nitq fəaliyyəti növləri üzrə bacarıqlara yiyələnmələri üçün real (autentik) dil materiallarının və situasiyalarının tədris prosesinə gətirilməsi təlimin zəruri nəticələrindəndir. Bu, tələbələrin lüğət ehtiyatını zənginləşdirdiyi kimi, onların rabitəli nitq bacarığının inkişafında da mühüm əhəmiyyət kəsb edir.

İşin elmi yeniliyi: Tələbələr xarici dildə olan materialı dinlədikləri zaman söz və ifadələri çox ləng anlaması onların eşitdikləri dil formalarının şüurlu şəkildə bilməmələridir, bu da tez-tez yanlış anlama və ya mənanın itirilməsi ilə nəticələnir. Dinləmə zamanı şagirdlər çox diqqətli olmalıdır. Müəllim bu işdə seçilən materialı asan və maraqlı etməklə onlara yeni sözlərin öyrədilməsində, möhkəmləndirilməsində kömək edə bilər.

İşin tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi tələbələrin dərs prosesində üzləşdikləri çətinliklərin səbəbinin müəyyən olunması, bu prosesdə vərdişlərin aşılanması yolları sistemli şəkildə yaradılması, dili öyrənilən ölkənin dil və mədəniyyəti ilə bağlı lüğət tərkibi işlənib hazırlanması və öyrənənlərin digər ölkə mədəniyyətinin mənimsəməsində qarşılaşdırları çətinliklərin müəyyən edilməsində kömək ola bilər. Araşdırılmış mövzu fransız dilinin metodikası fənni üzrə seçmə kursda, diplom və magistr işlərinin yazılmasında və s. tətbiq oluna bilər.

Ədəbiyyat

1. Ağayev, Ə. Yeni təlim metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri. // Azərbaycan Respublikasının təhsil Problemləri İnstitutunun Elmi əsərləri. – Bakı, 2006, № 1, – s. 29-44.
2. Şirəliyev, Ə.Ş. Xarici dil dərslərində fəal təlim metodlarının tətbiqi. Beynəlxalq elmi konfransın materialları. – Bakı: ADU, – 2010, – s. 132-135

3. Гусейнзаде, Г.Дж. Обучение речевой коммуникации на иностранном языке / Г.Дж.Гусейнзаде, – Баку: Мутарджим, –2014, –208 с.
4. Ковалевская, Е.В. Проблемное обучение: подход, метод, тип, система / Е.В.Ковалевская, – Москва: Лингвастрат, – 2000, – 342 с.

J.F.Tagi-zade

The Ways to Developing the Habit of Sentence Formation in Students in the Teaching of the French Language

Summary

In modern times, the interest in learning foreign languages, the issue of free communication in any foreign language has become one of the urgent problems of education. One of the main issues in language learning is vocabulary enrichment. Thus, lexical studies in the teaching of the French language serve the development of the lexical aspect of the language, including finding synonyms and antonyms, grouping words according to their meaning, choosing a word that does not belong to the same group, finding a word through a puzzle, etc.

The article analyzes ways of explaining new words, enriching the vocabulary, and developing the habit of forming among students during the lesson. In order to master the language better, the issues of wide use of independent work, the teaching character of each stage of the lesson, and the creation of the ability to work independently are mentionted.

Key words: *active learning, context, vocabulary, reading organization, writing skills, speaking skills*

Дж.Ф.Таги-заде

Пути формирования навыков создания предложений у студентов при преподавании французского языка

Резюме

В современное время интерес к изучению иностранных языков, вопрос свободного общения на любом иностранном является актуальной проблемой процесса обучения. Одной из главных задач в изучении языка является обогащение словарного запаса. Таким образом, лексические занятия в преподавании французского языка служат развитию лексической стороны языка, в том числе нахождению синонимов и антонимов, группировке слов по их значению, выбору слова, не относящегося к одной группе, нахождению слова через головоломку и т. д.

В статье анализируются способы объяснения новых слов, обогащения словарного запаса, формирования необходимых навыков у учащихся говорения во время урока. В целях лучшего овладения языком затронуты вопросы широкого использования самостоятельной работы, обучающего характера каждого этапа урока, формирования умения работать самостоятельно.

Ключевые слова: *активное обучение, контекст, словарный запас, организация чтения, навыки письма, навыки разговорной речи*

Rəyçi: f.e.d., prof. Ə.M.Zeynalov

Redaksiyaya daxil olub: 15.05.2024